*Gündəlik ictimai-siyasi qəzet*

# XALQ QƏZETİ

*№ 182 (28275) 21 avqust 2016-cı il, bazar*

**Qəzet 1919-cu ildən nəşr edilir**
**www.xalqqazeti.com**

**TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ**

## Füzuli rayonunun Birinci və On birinci Qayıdış qəsəbələrarası avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** On iki min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Birinci və On birinci Qayıdış qəsəbələrarası avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 5,1 milyon (beş milyon bir yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni və tikinti işlərini müəyyən olunmuş qaydada təmin etsinlər.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 avqust 2016-cı il**

> *Azərbaycanda bütün azadlıqlar təmin edilir. Söz azadlığı yüz faiz təmin edilir. Azərbaycanda yüzlərlə mətbu orqan fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycanda internetə heç bir məhdudiyyət qoyulmur. İnternet azaddır, senzura yoxdur. İnternet istifadəçilərinin sayı 72 faizə yaxındır. Mətbuat azadlığı tam şəkildə təmin edilir. Eyni mənzərə sərbəst toplaşma azadlığına da şamil edilə bilər. Azərbaycanda mütəmadi olaraq müxtəlif siyasi partiyaların, qrupların aksiyaları keçirilir. Bu aksiyalar azad şəkildə keçirilir və heç bir məhdudiyyət qoyulmur.*
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycanda bütün azadlıqlar təmin edilir

***❒ Demokratik cəmiyyətlərin hərtərəfli inkişafı üçün zəruri olan əsas prinsiplərdən biri fikir və söz azadlığı, müstəqil mətbuatın fəaliyyətinə normal şərait yaradılması, insanların öz fikirlərini sərbəst ifadə etmələrinin təmin olunmasıdır. Azad mətbuat, azad söz demokratiya və aşkarlığın, insan hüquq və azadlıqlarının qorunmasının mühüm amillərindən hesab olunur. Demokratik təsisatların yüksək səviyyədə təmin olunmadığı ölkələrdə demokratiyanın inkişafından danışmaq əhəmiyyətsizdir.***



Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra demokratik təsisatların inkişafı prioritet vəzifə kimi qarşıya qoyuldu. Çünki insan hüquq və azadlıqlarının dövlət səviyyəsində müdafiə olunmadığı, azad sözün və müstəqil mətbuatın inkişafına şərait yaradılmayan ölkələrin beynəlxalq aləmə inteqrasiyasında, nüfuzlu qurumlarla əməkdaşlığında çətinliklər yaranırdı. Söz yox ki, müstəqilliyimizin ilk illərində Azərbaycana rəhbərlik edənlərin naşılığı və idarəçiliyindəki təcrübəsizliyi ölkəmizin beynəlxalq aləmə inteqrasiyasında müəyyən problemlər yaratmışdı. Demokratiyanı anarxiya, özbaşınalıq və mənəm-mənəmlik kimi dərk edən hakimiyyət rəhbərlərinin və onların əlaltılarının insanlarla kobud rəftarı, haqlı tənqidlərə dözümsüzlük göstərmələri, çox vaxt müstəqil mətbuatın yazdığı məqalələrə senzura tətbiq edilməsi, müəlliflərə fiziki təsir göstərilməsi müstəqilliyini yenicə qazanmış respublikamızı beynəlxalq aləmdən təcrid edirdi. AXC-Müsavat iqtidarının daxili işlər nazirinin o vaxt televiziyada canlı yayıma girərək təhqiramiz ifadələr işlətməsini və bununla da verilişin yarımçıq dayandırılmasını, jurnalisti döyərək minik maşınının yük yerinə atmasını, insanlığa xas olmayan, demokratik prinsiplərlə daban-dabana zidd olan belə yaramaz əməlləri hər birimiz yaxşı xatırlayırıq.

1993-cü ilin ikinci yarısından başlayaraq ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıtmasından sonra demokratik təsisatların reallaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. 1995-ci ildə müstəqil Azərbaycan özünün yeni Konstitusiyasını qəbul etdi. Konstitusiyanın əsas müddəalarından biri ondan ibarətdir ki, Azərbaycan dövlətində söz, fikir və məlumat azadlığı, hər kəsin məlumat almaq və yaymaq hüququ, KİV-lər üzərində senzuranın yolverilməzliyi dövlətin əsas prinsipidir. Bunun ardınca, Azərbaycan dövləti siyasi iradəsi və böyük səyləri nəticəsində respublikada həmin prinsiplər üzrə real fəaliyyətə başladı.

Azərbaycan dövləti mətbuatın hərtərəfli inkişafı üçün əsas prinsiplərdən biri olan fikir və söz azadlığının təmin edilməsi üçün ölkədə azad mətbuatın hüquqi bazasının formalaşdırılması istiqamətində qətiyyətli addımlar atdı. İnsan hüquq və azadlıqlarının qorunması, insanların öz fikirlərini sərbəst ifadə etmələri, bu məqsədlə mitinq, piket və etiraz aksiyalarının keçirilməsi üçün şəraitin yaradılması, belə aksiyalar üçün müvafiq yerlərin ayrılması ulu öndərin demokratik prinsiplərin inkişafına yaratdığı əlverişli şəraitin göstəriciləri idi.

1998-ci ilin noyabrında qəbul olunmuş "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu insanların öz fikirlərini sərbəst surətdə ifadə etmələrini demokratik şəkildə tənzimlədi. Qanunda göstərilirdi ki, "Hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsi ilə təmin edilir. Həmin azadlığın həyata keçirilməsi və məhdudlaşdırılması bu Qanunla müəyyən edilir".

Konstitusiyanın 49-cu maddəsində təsbit edilmiş sərbəst toplaşmaq azadlığı beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq bu qanun əsasında tətbiq edilir. Dövlət sərbəst toplaşmaq azadlığının həyata keçirilməsi zamanı şəxslərin bərabərlik hüququna təminat verir. Eyni zamanda, mitinq və ya digər aksiyalar zamanı kimliyindən asılı olmayaraq, iştirakçıların təhlükəsizliyinin təmin olunmasını dövlət öz üzərinə götürür.

Ulu öndərin siyasi xəttini davam etdirən Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, insan hüquq və azadlıqlarının təmin olunması, azad sözün, müstəqil mətbuatın inkişafı istiqamətində qətiyyətli adımlar atdı, qanunvericilik bazası daha da təkmilləşdirilərək müasir tələblər səviyyəsində quruldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə göndərdiyi "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa əlavə və dəyişikliklər edilməsi haqqında qanun layihəsini xüsusi qeyd etmək istərdik. Avropa Şurası Venesiya Komissiyası ilə Azərbaycan hakimiyyəti nümayəndələrindən ibarət yaradılmış işçi qrupunun üzvlərinin birgə hazırladıqları layihə 2008-ci ilin may ayında təsdiq olunmuşdur. Onu da diqqətə çatdıraq ki, Venesiya Komissiyası tərəfindən verilən bütün tövsiyələr nəzərə alındı. O vaxt Avropa Şurası Venesiya Komissiyasının nümayəndəsi Simona Qranata "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun təkmilləşdirilməsinə münasibət bildirərkən demişdir ki, qanunun bir sıra maddələrinə əlavə və dəyişiklik edilməsində hakimiyyətlə Avropa Şurasının Venesiya Komissiyası arasında ümumi razılıq əldə olundu: " Artıq "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanun Avropa standartlarının tələblərinə cavab verir. Venesiya Komissiyası təklif edirdi ki, yığıncaqlar keçirmək üçün ünvanlar müəyyənləşdirilərək qanunda göstərilsin".

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu da əlavə və və dəyişikliklərə kifayət qədər müsbət rəy vermişdir. Ekspertlər də təsdiqləmişdilər ki, qanuna edilən əlavə və dəyişikliklər kifayət qədər mükəmməldir.

Dövlətimizin başçısı ölkəyə rəhbərlik etdiyi illərdə müstəqil inkişaf yolu seçmiş Azərbaycan yüksək mənəvi keyfiyyətlər göstəricisi olan demokratik prinsiplərin qorunmasını, insan hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi hesab etmişdir və bu gün də həmin istiqamətdə qətiyyətli addımlar atılır. İnsanlar onlar üçün yaradılmış əlverişli şəraitdən yararlanaraq, öz siyasi azadlıqlarından, özünütəsdiqin inkişafı naminə və ictimai həyatda özlərinin fəal iştirakı üçün istifadə edirlər. Fundamental insan hüquqlarının içərisində sərbəst toplaşmaq azadlığı əsas siyasi hüquqlardan, insanın daxili və fəaliyyət azadlığını şərtləndirən əsas məsələlərdən biridir. Bu hüquqlar hər hansı məsələyə dair fərdi və kollektiv baxışların açıq və kütləvi ifadə formasıdır, dinc toplaşma azadlığını gerçəkləşdirən insanların fikir mübadiləsi aparması üçün əlverişli vasitədir.

Bəs bu qanuna əlavə və dəyişikliklər edilməsi zərurəti nədən yaranmışdı? Bu əlavə və dəyişikliklərin edilməsi təkcə Azərbaycanda deyil, ümumiyyətlə, Avropada baş verən hadisələrin bilavasitə təsirindən yaranmışdı. Bütün Avropanın hüquq məkanında kifayət qədər dəyişikliklər baş verir və sözsüz ki, yeni hüquq məkanına daxil olan Azərbaycan vətəndaşı da bu hüquqlardan bəhrələnməli və bunlar milli qanunvericiliyimizdə öz əksini tapmalıdır. Sözügedən qanun 1998-ci ildə qəbul olunmuşdu. Ondan bəri ölkəmiz böyük tarixi yol keçmişdir. Bu illər ərzində Azərbaycanda mühüm hadisələr baş vermiş, ölkəmiz beynəlxalq təşkilatlara, qurumlara üzv olmuş və bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur. Bütün bu yeniliklər "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunda da bir sıra əlavə və dəyişikliklərin edilməsi zərurətini yaratmışdır. Bu qanuna edilən əlavə və dəyişikliklər ilk növbədə qanunun liberallaşması, humanistləşdirilməsi xarakteri daşıyır. Hər bir əlavə və dəyişikliyin əsas amalı Azərbaycan vətəndaşlarının hüquqlarının sərhədlərinin genişləndirilməsidir.

Bu sözləri təkcə "Sərbəst toplaşmaq azadlığı haqqında" qanun barədə yox, ümumiyyətlə demokratik təsisatların hər biri haqqında demək mümkündür. Çünki ötən müddət ərzində Azərbaycanda bütün azadlıqlar dünya təcrübəsinə uyğun təmin olunub. Dövlətimizin başçısı da bunu yüksək dəyərləndirir. Ölkə Prezidenti Berlində Almaniya Federativ Respublikasının Kansleri Angela Merkel ilə birgə keçirilən brifinqdə jurnalistlərin sualına cavab verərkən demişdir: "Azərbaycanda bütün azadlıqlar təmin edilir. Söz azadlığı yüz faiz təmin edilir. Azərbaycanda yüzlərlə mətbu orqan fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycanda internetə heç bir məhdudiyyət qoyulmur. İnternet azaddır, senzura yoxdur. İnternet istifadəçilərinin sayı 72 faizə yaxındır. Mətbuat azadlığı tam şəkildə təmin edilir".

Prezident vurğulayıb ki, eyni mənzərə sərbəst toplaşma azadlığına da şamil edilə bilər: "Azərbaycanda mütəmadi olaraq müxtəlif siyasi partiyaların, qrupların aksiyaları keçirilir. Bu aksiyalar azad şəkildə keçirilir və heç bir məhdudiyyət qoyulmur".

Dövlət başçısı deyib ki, bütövlükdə Azərbaycanda son illər demokratiyanın inkişafı istiqamətində böyük inkişaf var: "Əlbəttə, bu bizim üçün çox vacibdir. Əminəm ki, siyasi islahatlar iqtisadi islahatlarla paralel aparılmalıdır. Yalnız bu halda islahatların dayanıqlılığı təmin oluna bilər".

Fundamental azadlıqlara gəldikdə, siyasi fəaliyyət azadlığı da xüsusi vurğulanmalıdır. Yüzlərlə siyasi təşkilat, partiya mövcuddur. Milli Məclisdə təmsil olunan siyasi partiyaların dövlət tərəfindən maliyyələşdirilməsi də demokratik proseslərə verilən yüksək dəyərin təcəssümüdür.

Hazırda hökumətimiz böyük sərmayələr tələb edən layihəni həyata keçirməkdədir: genişzolaqlı internetin hər bir şəhər və kənd üçün təmin edilməsi qarşıya qoyulan prioritet vəzifələrdəndir. Digər sözlə, azad internetin mövcudluğu, senzuranın olmadığı bir ölkədə mətbuat azadlığının məhdudlaşdırılması mümkün deyil. Belə ölkələr, o cümlədən Azərbaycan söz və mətbuat azadlığının, insanların öz fikirlərini sərbəst ifadə etmələrinin tərəfdarıdır. Mitinq və digər aksiyaların keçirilməsi üçün şəhərin müvafiq yerlərində, həmçinin bölgələrdə tam şəraiti olan yerlərin ayrılması ölkəmizdə demokratik təsisatların inkişafına xüsusi önəm verilməsinin nəticəsidir. Bu, hökumət ilə cəmiyyət arasında zəruri əlaqələrin qurulmasına zəmin yaradır. Belə hallar ölkəmizin dünya birliyindəki mövqeyini daha da möhkəmləndirir. Təbii ki, demokratik ənənələrin inkişafına diqqət yetirmək müasir Azərbaycanın ən böyük zənginliklərindən biridir. Hər birimiz bundan qürur hissi duyuruq.

Dövlətimizin başçısının demokratik dəyərlərə xüsusi önəm verməsi tanınmış ictimai-siyasi xadimlərin, habelə iri şirkərlərin rəhbərlərinin də diqqətindən yayınmır. Məsələn, ABŞ-ın "Caspian Group Holdings" şirkətinin baş direktoru Rob Sübhani deyib ki, Prezident İlham Əliyev sayəsində dünyada Azərbaycanla daha çox hesablaşmağa başlayıblar: "İlham Əliyevin siyasəti nəticəsində bütün dünyada Azərbaycanın əhəmiyyətinin və ölkəyə qarşı etimadın artması çox önəmlidir".

Son illər ölkədə baş verənlər də təsdiqləyir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyasının fonunda reallaşdırılan demokratik islahatlar mütəmadi xarakter daşıyır. Məhz buna görə də bu gün Azərbaycan sivil, demokratik dövlət kimi beynəlxalq müstəvidə qəbul olunur. Bu qiymətləndirmə ölkəmizin nüfuzunun artmasını şərtləndirən əsas amillərdən biridir.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***